# TEZ-TEZ VERİLƏN SUALLAR

## 1 BEYNƏLXALQ QIZIL XAÇ VƏ QIZIL AYPARA CƏMİYYƏTLƏRİNİN FEDERASİYASI (IFRC) NƏ İŞ GÖRÜR?

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Federasiyası (IFRC) həssas insanların ehtiyaclarını ödəmək və həyatlarını yaxşılaşdırmaq üçün fəlakətlərdən və təxirəsalınmaz tibbi vəziyyətlərindən əvvəl, hadisə zamanı və sonra fəaliyyət göstərir. Beynəlxalq Federasiya 191 Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərini birləşdirən və qlobal katiblik vasitəsilə onlara dəstək verən beynəlxalq üzvlük təşkilatıdır.

## 2 YOURNGO.ORG.AZ VEB SƏHİFƏSİNDƏN NECƏ FAYDALANA BİLƏRƏM?

Səhifədə qeydiyyatdan keçməklə:

1. Bilik portalı bölməsində siz Vətəndaş Cəmiyyəti Təşkilatlarının potensialını gücləndirmək üçün məlumatlar və sənədlər əldə edə bilərsiniz.
2. Maliyyə dəstəyi bölməsində Layihə Müsabiqəsi üçün ətraflı məlumat və müraciət formaları ilə tanış ola bilərsiniz.
3. Tədbirlər bölməsində cari xəbərlər və təlimlərdən xəbərdar ola bilərsiniz

## 3 YOURNGO.ORG.AZ VEB SƏHİFƏSİNDƏ QEYDİYYATDAN NECƏ KEÇƏ BİLƏRƏM?

Qeydiyyatdan keçmək üçün qeydiyyat düyməsinə sıxın.

## 4 BİLİK PORTALI MƏNƏ NƏ VƏD EDİR?

Bilik portalı sizin komandanız üçün dəstək rolunu oynayır. Komandanızın müxtəlif humanitar sahələr üzrə faydalı olan materialları bu portaldan əldə edə bilərsiniz. Bundan əlavə, IFRC tərəfindən təqdim olunan ödənişsiz təlimlər üçün materiallar da bu portalda mövcuddur.

Veb səhifədə qeydiyyatdan keçdikdən sonra Bilik portalına keçid edərək bütün materialları əldə edə bilərsiniz.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

IFRC

YOUR NGO

Public

# TEZ-TEZ VERİLƏN SUALLAR

## 5 HANSI SAHƏLƏR ÜZRƏ TƏLİMLƏR KEÇİRİLİR?

Vətəndaş Cəmiyyəti Təşkilatı üçün əsas sayılan və yerli imkanlardan asılı olaraq icra edilə biləcək sahələr üzrə təlimlər keçiriləcək. Vətəndaş Cəmiyyəti Təşkilatı olaraq təlimlərdə iştirak üçün qeydiyyatdan keçməniz gərəklidir.

## 6 TƏLİMLƏR ÖDƏNİŞLİDİR?

Təlimlərimiz və bilik portalında yer alan bütün təlim materialları ödənişsizdir. Sadəcə qeydiyyatdan keçmək lazımdır.

## 7 TƏDBİRLƏR VƏ TƏLİMLƏR BARƏDƏ HARADAN MƏLUMAT ALA BİLƏRƏM?

Tədbirlər barədə veb səhifənin ən alt hissəsində yer alan xəbərlər bölməsindən məlumat ala bilərsiniz.

## 8 MALİYYƏ DƏSTƏYİNİN MƏQSƏDİ NƏDİR?

Yerli Vətəndaş Cəmiyyəti Təşkilatları, yerli səlahiyyətli orqanlar və digər müvafiq maraqlı tərəflərlə tərəfdaşlıq və əməkdaşlıq yolu ilə, Azərbaycanda böhranlardan zərər çəkmiş insanların çətinliklərini azaltmaq və dözümlülüyünü yaxşılaşdırmaqdır. Buna, Azərbaycanda yerli VCT-lərin institusional imkanlarını və əməliyyat qabiliyyətlərinin gücləndirilməsi, o cümlədən könüllü qrupları və təşəbbüs icmaları (birliklər) vasitəsilə nail olunacaq.

Layihə haqqında geniş məlumatı buraya keçid edərək öyrənə bilərsiniz.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

IFRC

YOUR NGO

Public

# TEZ-TEZ VERİLƏN SUALLAR

## 9 QRANT MÜSABİQƏSİNƏ QATILMAQ ÜÇÜN NƏ ETMƏK LAZIMDIR?

Layihə təkliflərini təqdim etmək üçün ilk öncə veb səhifədə qeydiyyatdan keçilməlidir.

Veb səhifədə qeydiyyatdan keçəndən sonra: müraciət formaları, təlimat və prosedurları burada tapa bilərsiniz.

## 10 MÜRACİƏT ÜÇÜN KİMLƏR UYĞUNDUR?

Azərbaycan Respublikasının ərazisində rəsmi qeydiyatdan keçmiş qeyri-hökumət/Qeyri Kommersiya Təşkilatları (Hüquqi şəxslər).

Ətraflı məlumatı burdan və burdan ala bilərsiniz.

## 11 QRANT MÜSABİQƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏQDİM OLUNAN LAYİHƏLƏRƏ NƏ QƏDƏR DƏSTƏK VERİLƏCƏK?

Təşkilatlar (təqdim olunan bir layihə) üçün təyin olunan büdcə çərçivələri aşağıda göstərilib:

- Minimum məbləğ: CHF 50.000
- Maksimum məbləğ: CHF 70.000

Layihə büdcəsində bütün xərclər, o cümlədən mübadilə, əməliyyatlar və digər xərclər nəzərə alınmalıdır.

## 12 MÜRACİƏT ÜÇÜN KİMLƏR UYĞUN DEYİL?

1. Fiziki şəxslər;
2. Qeyri-hökumət/Qeyri Kommersiya olmayan təşkilatlar;
3. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərməyə məhdudiyyəti olan Qeyri Kommersiya Hüquqi şəxslər;
4. Xarici ölkələrdə qeydiyatdan keçmiş qeyri-hökumət/Qeyri Kommersiya Təşkilatları və onların yerli nümayindələri;

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

IFRC

YOUR NGO

Public

# TEZ-TEZ VERİLƏN SUALLAR

## 13 QRANT MÜRACİƏTLƏRİ ÜÇÜN SON MÜRACİƏT TARİXİ NƏ ZAMANDIR?

Layihə təklifləri göndərmək üçün **8 dekabr 2023-cü il (saat 18:00)** son müraciət tarixidir.

Qeyd olunan tarixdən sonra göndərilmiş müraciətlər qəbul **OLUNMAYACAQ.**

## 14 QRANT MÜRACİƏTLƏRİ ÜÇÜN PRİORİTET SAHƏLƏR HANSILARDIR?

1. Əhalinin ən həssas qruplarına humanitar yardım;
2. Əlilliyi olan insanların və məcburi köçkünlərin əsas dolanışıq vasitələrinin təmin edilməsi və sosial-iqtisadi səlahiyyətlərinin artırılması;
3. Humanitar və sosial yardıma yönləndirilmiş digər layihələr.

Veb səhifədə qeydiyyatdan keçdikdən sonra ətraflı məlumatı burada tapa bilərsiniz.

## 15 HANSI FƏALİYYƏTLƏR MALİYYƏLƏŞDİRİLƏ BİLƏR?

1. Humanitar məqsədləri üçün nəzərdə tutulan:
   - Sorğular və ehtiyacların qiymətləndirilməsi;
   - Təlim proqramları, məlumatlılığın artırılması;
   - Seminarlar və məşğələlər;
   - Audiovizual materialların istehsalı;
2. Hüquqi, psixoloji, fiziki və tibbi yardım layihələri;
3. Humanitar və sosial xidmətləri üçün onlayn platformaların yaradılması;

## 16 QRANT QAZANMIŞ LAYİHƏNİN İCRASINA NƏ ZAMAN BAŞLANILA BİLƏR?

Dəstək üçün uyğun olan layihələr **22 dekabr 2023-cü ildə** elan ediləcək. Layihəsi qrant qazanmış müraciətçi ilə IFRC arasında layihənin maliyyələşdirilməsi haqqında müqavilə **5 yanvar 2024-cü ilədək** imzalanacaq. Müqavilə imzalandıqdan sonra müqavilədə təyin olunmuş tarixdən etibarən layihə icrasına başlanıla bilər.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

IFRC

YOUR NGO

Public

# TEZ-TEZ VERİLƏN SUALLAR

17

**Təqdimatda nümunə kimi göstərilmiş forma ilə təqdim olunan keçiddəki  müvafiq büdcə forması arasında müəyyən fərqlər var. Lazım gələrsə, hansısa əlavə və ya dəyişiklik edilə bilərmi?**

Büdcə Şablonunda 1-ci vərəq (Büdcə) və 2-ci vərəq (Əsaslandırma) yalnız təqdimat məqsədləri üçün birləşdirilmişdir. Tələb olunan büdcə, yourngo.or.az veb səhifəsində Əlavə B olaraq yüklənən büdcədir. Şablona əlavə sütunlar **daxil etməyin.** Bununla belə, hər bir qrupun altına əlavə sətirlər daxil edə və ya boş sətirləri silə bilərsiniz.

18

**Veb səhifəyə yüklənən şablondakı büdcə xətti bizim üçün aktual deyilsə (məsələn, əcnəbi əməkdaşın maaşı və ya beynəlxalq səyahət) bu xətti aradan qaldırmalı və ya olduğu kimi saxlamaq lazımdır?**

Layihəniz üçün büdcə xətti lazım deyilsə, boş sətirləri aradan qaldıra bilərsiniz.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

IFRC

YOUR NGO

Public

# TEZ-TEZ VERİLƏN SUALLAR

19

**Konsultasiya və təlimçi ödənişləri texniki heyət siyahısına daxil edilməlidir?**

Layihə üzrə konsultant və ya təlimçilər işə qəbul edirsinizsə, onların əmək haqqı texniki heyət üzrə (1.1.1.) bildirilməlidir.
Əgər konsultant konkret tədqiqat, araşdırma və ya nəşr üçün subkontrakt edilirsə, müvafiq xərclər büdcə xəttinin 5.2-ci üzrə bildirilməlidir.
Əgər təlimçi və ya konsultant yuxarıda sadalananlardan başqa konkret fəaliyyət üçün subkontrakt edilirsə, müvafiq xərc 6-cı bölmə üzrə digər fəaliyyətlə bağlı xərclərdə bildirilməlidir.

Nə qədər ki, büdcə göstəricilərinin açıqlaması və təxmini xərclərin əsaslandırılması dəqiq və aydındır, onda üç variant məqbul hesab ediləcək.

20

**Tərəfdaşlıq Bəyannaməsi kimlə imzalanmalıdır?**

Tərəfdaşlıq bəyannaməsi layihənin həyata keçirilməsində iştirak edəcək maraqlı tərəflərlə imzalanmalıdır. Əgər Maraqlı Tərəfin layihədə birbaşa icra rolu yoxdursa, tərəfdaşlıq bəyannaməsini imzalamağa ehtiyac yoxdur.

Əgər maraqlı tərəf layihənin həyata keçirilməsini dəstəkləyərsə, maraqlı tərəfin dəstək məktubu layihə təklifini gücləndirəcək və layihənin qiymətləndirilməsi zamanı faydalı olacaqdır.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

IFRC

YOUR NGO

Public